# Müraciətlərə həssas münasibət

## Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Qəbələdə 6 rayonun sakinlərini fərdi qaydada qəbul edib

*"Açıq qapı" şəraitində keçən qəbul zamanı Qəbələ, Şəki, Oğuz, Balakən, Zaqatala, Qax rayonlarının sakinləri əsasən dövlət büdcəsi hesabına mənzil və minik avtomobilləri ilə təmin olunma, bərpa-müalicəsinə köməklik edilməsi, məşğulluğun təminatı, sosial xidmət müəssisəsinə qəbul edilmə, istehsalat xəsarətinə görə müavinətin təyin olunması, əmək hüquqlarının müdafiəsi, peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb olunma və digər məsələlərlə bağlı müraciət ediblər. Hər bir müraciət nazirliyin aidiyyəti struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə diqqətlə araşdırılaraq cavablandırılıb. Bir sıra müraciətlərdə əksini tapan məsələlərin qısa vaxt ərzində həllini tapması, ayrı-ayrı vətəndaşların bərpa-müalicəsinə köməklik göstərilməsi, lazımi reabilitasiya avadanlıqları, əlilliyi olan şəxslərin sanator-kurort yollayışı ilə təmin olunması və s. barədə tapşırıqlar verilib.*



Nazirliyin ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, qəbulda ölkə başçısının 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası işlərinin uğurla davam etdirildiyini vurğulayan əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov diqqətə çatdırıb ki, respublikanın bölgələrində müharibə əlilləri və şəhid ailələri üçün mənzillər tikilir. Bakıda 96 mənzilli, İmişli, Beyləqan rayonlarında hər biri 54 mənzilli, Şamaxı rayonunda 36 mənzilli yaşayış binaları inşa olunur. Bununla bərabər, Bakıda, Sumqayıtda, Gəncədə, Mingəçevirdə istismara hazır binalardan alınmış mənzillər təmir edildikdən sonra qeyd olunan təbəqələrə aid şəxslərin istifadəsinə veriləcəkdir. Digər tərəfdən, ölkənin regionlarında 379 fərdi ev, o cümlədən Qəbələ rayonunda 3 ədəd, Şəki rayonunda 6 ədəd, Oğuz rayonunda 5 ədəd, Balakən rayonunda 3 ədəd, Zaqatala rayonunda 16 ədəd, Qax rayonunda 3 ədəd fərdi ev inşa olunur. Onların bu il ərzində istifadəyə verilməsi təmin ediləcək. Ümumilikdə, Sərəncamın uğurlu icrası olaraq 2014-cü ilədək növbədə olan bütün müharibə əlilləri və şəhid ailələrinin mənzillə təminatı yaxın illərdə həyata keçiriləcək.

Nazir ayrı-ayrı şəxslərin minik avtomobilinə tibbi göstərişinin olub-olmamasının müəyyən edilməsi üçün onların müayinəsinin aparılması barədə göstəriş verib. Bildirib ki, müharibə əlilləri və onlara bərabər tutulan şəxslərin minik avtomobili ilə təminatının sürətlənməsi bu məqsədlə növbəyə dayanmaq istəyənlərin sayının artmasına səbəb olub. Lakin burada qanunvericiliyə əməl olunmasına və şəffaflığın təminatına ciddi nəzarət həyata keçirilir. Əlavə edib ki, təkcə cari ilin yanvar-mart aylarında TSEK-lərə müraciət edənlərdən yalnız 31,1%-nin (130 nəfər) minik avtomobilinə tibbi göstərişinin olduğu müəyyən edilib və onlara həmin göstərişlər verilərək növbəyə götürülüb.

Qəbul zamanı iş yeri ilə təmin edilmək üçün müraciət edən şəxslərin məşğulluğunun təminatına yerindəcə köməklik göstərilib. Ünvanlı sosial yardım və əlillik təyinatı ilə bağlı müraciətlər azlıq təşkil edib və həmin müraciətlərin obyektiv araşdırılaraq konkret tədbirlər görülməsi tapşırılıb. Bir sıra müraciətlər nazirliyin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı olduğundan onlar müvafiq qurumlara göndərilməsi üçün qeydiyyata alınıb.

**M.MUSTAFAYEV,**
**"Respublika".**